**Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün**

# BƏLƏDÇİ

Xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün abituriyent əvvəlcə buraxılış imtahanı verməlidir. Buraxılış imtahanının nəticəsi müsabiqə şərtlərinə uyğun olarsa onda abituriyent arzuladığı Qabiliyyət İmtahanı Komissiyası(QİK) üzrə qeydiyyatdan keçməlidir. Qeydiyyat tarixləri barədə məlumat DİM -in rəsmi internet saytında verilir. Abituriyent komissiyalar üzrə qeydiyyatdan keçmək üçün lazım olan şərtlərlə tanış olmalıdır. Abituriyent bir istiqamətə aid ən çoxu 4 komissiya üzrə qeydiyyatdan keçə bilər. Qeydiyyat tarixləri elan edilən kimi komissiyalar üzrə qeydiyyatdan keçmək və prosesi son tarixlərədək saxlamamaq tövsiyə edilir. Komissiyalar üzrə qeydiyyatdan keçmiş abituriyent buraxılış vərəqəsinin verilməsini gözləməlidir. DİM-in internet saytında bu haqda məlumat verilir. Abituriyent “Qabiliyyət imtahanına buraxılış vərəqəsi”ndə göstərilmiş tarixdə, vaxtda və ünvanda qabiliyyət imtahanında iştirak etməlidir.

Xüsusi qabiliyyət imtahanları aşağıdakı ixtisas istiqamətləri üzrə aparılır:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Memarlıq
4. Teatr, kino və xoreoqrafiya sənəti
5. Bədən tərbiyəsi və idman
6. Jurnalistika

Təsviri sənət, musiqi sənəti, teatr, kino və xoreoqrafiya sənəti, bədən tərbiyəsi və idman istiqamətlərinin ixtisasları ali təhsil müəssisələrinin V, memarlıq ixtisası I, jurnalistika və islamşünaslıq ixtisasları isə III ixtisas qrupuna daxildir.

Abituriyent seçdiyi ixtisasa uyğun olaraq xüsusi qabiliyyət imtahanlarına aşağıdakı qəbul proqramları əsasında hazırlaşmalıdır

-təsviri sənət

-musiqi sənəti

-memarlıq

-teatr, kino və xoreoqrafiya sənəti

-bədən tərbiyəsi və idman

-islamşünaslıq

-jurnalistika